

Ramiz MƏMMƏDZADƏ

# Ömrün mənası

**Deyirlər ki, kasıb-kusubların qayğıya, himayəyə, maddi-mənəvi dayağa ehtiyacı olan kəslərin də hardasa gözəgörünməz bir kimsəsi var.**

Belə bir deyimi də xatırlamaq yerinə düşərdi, bəlkə:

**Ey kimsəsizlər kimsəsi,**
**Mən bikəsin ol kimsəsi...**

Bəxtin, taleyin gərdişini bilmək olurmu ki...

Mən pedaqoji institutu bitirib Sumqayıta təyinat aldım (Allah istəkli şairimiz Səməd Vurğunun böyük qardaşı, o illərdə rektorumuz olmuş professor Mehdixan Vəkilova rəhmət eləsin. Bu təyinatda o cənnətlik kişi həlledici rol oynadı).

Xahiş etdim ki, məni Saray kəndinə göndərsinlər. Göndərdilər və bu arada, yəni 1962-ci ilin sonlarında Bakı və Sumqayıt əhalisini kənd təsərrüfatı məhsulları ilə daha yaxşı təmin etmək məqsədilə "Abşeron" adlı rayon yaradıldı, Saray kəndi də keçdi Abşeron rayonunun tərkibinə.

Mən Saray kəndində cəmi-cümlətans dörd ay müəllim işlədikdən sonra yenicə təşkil edilmiş Abşeron Rayon Komsomol Komitəsində şöbə müdiri kimi işə başladım.

O vaxtlar Bakı, Sumqayıt, Dəvəçi (indiki Şabran) rayonunun (onda Siyəzən və Xızı rayon-ları yaradılmamışdı) kənd və qəsəbələrini əhatə edən bu nəhəng ərazisi olan rayona "Abşeron" adı verildi (mərkəzi Xırdalan olmaq şərtilə). Təşəbbüskar və təşkilatçı, son dərəcə səmimi, əv-vəllər Mərkəzi Komitədə və Zaqatala Rayon Partiya Komitəsində birinci katib işləmiş, SSRİ Ali Sovetinin deputatı olmuş, filologiya üzrə elmi dərəcəli (o vaxtlar üçün bu, nadir hadisəydi, indi elə idarələrimiz var ki, əməkdaşlarının çoxlarının elmi dərəcəsi, adı var. Elə bil Elmlər Akademiyasının bir bölməsidir. Sən demə, aspirantura-filan boş şey imiş, keçmişin qalığıymış... bir elmi rəhbər tap... vəssalam...) olan bir yaraşıqlı cavan kişi - Sadıq Murtuzayev Abşeron Rayon Partiya Komitəsinin birinci katibi seçildi.

Sadıq müəllim də yaradıcı və tükənməz bir enerji ilə işə başladı və bu cavan raykom kati-binin ən xeyirxah, faydalı, savab bir işi də ondan ibarət oldu ki, Bakıda kirayədə (lap elə murdar erməni iyi verən mənzillərdə) birtəhər məskunlaşmış partiya, komsomol işçilərinə, icra və təsərrüfat orqanlarında çalışanlara Xırdalan sovxozunun, quşçuluq fabrikinin hesabına tikilmiş yeni binalarda ev verdi. O cümlədən mənə də ikigözlü mənzil verdilər. "Abşeron" rayon qəzetinin əməkdaşları da mənzillə təmin olundular. Redaksiyanın əməkdaşları - Dilarə xanım Vəkilova, Firudin Rəsulov, Rizvan Cəbiyev, Məmməd Kazım, Məmməd Əfşan yeni mənzillərə köçdülər, jurnalistlərlə qonşu olduq.

İndi, 2019-cu ilin bu kövrək payız günlərində, anamız Günəşə daha sıx istəklə yanaşdığımız bir zaman daxilində 80 yaşına çatmasına şad olduğumuz (80-ə çatmaq arzusu ilə yaşamış neçə-neçə qohum, dost, tanış indi aramızda yoxdu...) Məmməd Əfşanla da o illərdə, yəni Abşeron rayonunun yarandığı vaxtda tanış olmuşuq.



Mən də bu "Abşeron" qəzeti səhifələrində şeir və məqalələrlə çıxış etməli olurdum.

Günlərin bir günü Məmməd mənə zəng vurub dedi ki, onun məşhur "Kommunist" qəze-tində şeiri çap olunub, məsləhət gördü ki, tapıb oxuyum, fikrimi deyim. Şeiri oxudum və Məm-mədə dedim ki, şeir pis deyil, amma "Məmməd Məmmədov" imzası xoşuma gəlmədi. Gəl, sənə bir şair təxəllüsü tapaq. Məmməd dedi ki, kəndimizdə bir çay var - Əfşan çayı. Və belə qərara gəldi ki, "Məmməd Əfşan" imzası yaxşıdır. O vaxtdan mətbuatda "Məmməd Əfşan" imzası görünməyə başladı.

"Abşeron" qəzeti redaksiyası ətrafında sözün əsl mənasında istedadlı qələm adamları to-planmışdı.

O dövrün tanınmış jurnalisti Hüseyn Mehrəliyev, yazıçılar Faiq Dərgahov, Fərman Kə-rimzadə, şair Məmməd Kazım, istedadlı jurnalist Dilarə xanım Vəkilova, Namiq Abbasov, şair-elmi tədqiqatçı Əjdər Fərzəli, Firudin Rəsulov, Rizvan Cəbiyev, Polad Qasımov... bu qəzetin aparıcı qüvvələri idi. Vəfat edənlərə Allah rəhmət eləsin, yaşayan dostlara salam olsun! Və onu da deməliyəm ki, sonralar bu redaksiya işçilərinin əksəriyyəti öz bacarıq və istedadları sayəsində daha məsul vəzifələrdə işləməklə bütün respublikada tanındılar. Redaktor vəzifəsində səmərəli işləmiş Namiq Abbasov bir müddətdən sonra Abşeron Rayon Partiya Komitəsinin II katibi seçildi, sonrakı illərdə Moskvada xüsusi təhsil alaraq Azərbaycanın Milli Təhlükəsizlik naziri oldu, general-polkovnik ali hərbi rütbəsini qazandı. Və bu yüksək vəzifədə hörmətli Namiq müəllim şərəf və namusla işlədi.

Çevik və qətiyyətli nazir müavini, rəhmətlik general Tofiq Babayev və nazirliyin digər peşəkar əməkdaşları öz işlərini dövlətçiliyimizin möhkəmlənməsi, təhlükəsizliyimizin təmin edilməsi sahəsində qüdrətli rəhbərimiz Heydər Əliyevin tələbləri səviyyəsində qurmağa ça-lış-dılar.

Rizvan Cəbiyev Milli Məclisin deputatı seçildi və öz fəallığı ilə fərqləndi.

Firudin Rəsulov "Kommunist" qəzetində işə dəvət edildi. Sonra "Sovet kəndi" qəzetinin baş redaktoru oldu.

Televiziya və Radio Verilişləri Komitəsinə, "Azərbaycan gəncləri" qəzeti redaksiyasına işə gedənlər məşhurlaşdı.

Məmməd Əfşan da bir müddət "Kirpi" jurnalında, sonrakı illərdə "Gömrük xəbərləri" qəzetində çalışdı. İndi də "Kirpi TV" jurnalını redaktə edir.

Sovet dövründə, müstəqilliyimizə qovuşduğumuz illərdə də Məmməd Əfşan bədii yara-dıcılıqla intensiv şəkildə məşğul oldu və hazırda da gənclik həvəsi ilə yazıb yaradır.

Əgər mənim cavanlıq dostum bugünədək 36 kitab nəşr etdiribsə, deməli o, həvəskar yox, peşəkar yazı-pozu adamıdır. Bu, faktdır.

Desəm ki, Məmməd Əfşan bu gün bioqrafik roman yazanların sırasında öndədir, qəti səhv etmərəm. O əsərlərin bir neçəsini böyük həvəslə oxumuşam, bir neçə əsəri barədə fikrimi yazıb çap etdirmişəm. Millətimizin fəxri, vüqarı Heydər Əliyev haqqında kitabı maraqla qarşılanmışdır.

Vətənimizin məşhur övladları- akademik İmam Mustafayev, akademik Əhməd Mahmudov, akademik Əhliman Əmiraslanov, Sosialist Əməyi Qəhrəmanı Feyruz Mustafayev, təsərrüfat adamı Əli Süleymanov, tanınmış ziyalı Maqsud Hacıyev haqqında bağladığı kitabları bioqrafik romanların uğurlu nümunələri hesab etmək olar. Onun "Ömür karvanı" kitabı Ağdamda əvvəlcə raykom katibi, sonralar sovxoz direktoru işləmiş Yaqub Əhmədova həsr edilib. Mən bu kitabı həvəslə oxudum. Kitab oxunaqlı bir dillə qələmə alınıb.

Yazının elə bu yerində Yaqub Əhmədovla bağlı bir əhvalat düşdü yadıma.

Səhv etmirəmsə, 1982-ci ilin payızıydı. Gözəlim Ağdama - evimizə getmişdim.

Dostum Akif Quliyev (Allah rəhmət eləsin!) dedi ki, gəl, gedək Güllücəyə, Yaqub Əhmədov orda sovxoz direktorudur, gedək görək nə var, nə yox. Getdik, xoş-beş də öz yerində.

Ayrılanda Yaqub kişi dedi ki, vallah qabım yoxdur, olsaydı sizə çaxır verərdim apardınız.

Mən də qayıtdım ki, əvvəla, axırıncı dəfə nə vaxt çaxır içmişəm, yadımda deyil, ikincisi, içki ovqat, əhval-ruhiyyə ilə bağlıdır. O ki qaldı içki içməyə, mən o paltara ləkə salmayandan, su rəngində olan içkidən içirəm, toyda, ad günlərində, məclislərdə... Üçümüz də güldük, xudahafizləşdik... Nə isə...

Bir az da giley-güzar eyləyim.

Bir sual məni düşündürür, narahat edir.

Necə olur ki, belə sanballı bioqrafik romanlar, oçerklər, povestlər... yazmış bir yaradıcı adam ədəbi tənqidin diqqətini cəlb etməyib.

Məmməd Əfşan ədəbi təhlilə ehtiyacı olan sənət adamıdır. Əslində heç dəxli də yoxdur ki, hansı tənqidçisə onun da adını çəksin... Kitablar sabaha qalandır... Məmməd Əfşan başını aşağı salıb işini görür, yazır, yaradır. 80-dən sonra da ədəbi üfüqlərin sehirli, sirli yolları Məmmədin üzünə açıqdır...

Yazıçı Jül Renar deyib ki, uzun ömür sürməyin bir yolu var - qocalmaq...

**Sən qocalan deyilsən, Məmməd Əfşan!**

**Səksən yaşın mübarək!**

**Şüvəlan,**
**7 oktyabr 2019-cu il**



2019.- 12 oktyabr.- S.7.